Allah .......................... (sənin adın) elə sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə etdi ki, Ona iman edən hər kəs həlak olmasın, amma əbədi həyata malik olsun.

Yəhya 3:16



## Allahın planını kəşf et:
## SÜLH VƏ HƏYAT

Rəbb xoşbəxt
yaşamağımızı istəyir.
Nə üçün adamların
əksəriyyəti əsl həyatın
nə olduğunu bilmir?



## Problem:
## Allah ilə insan arasında uçurum var

Bizim
günahlarımıza
görə Allahla insan
arasında ayrılıq
yarandı.

**İNSAN** **ALLAH**



Allah insanı qarşılıqlı münasibət üçün yaratdı. O, bizə fövqəladə gözəl həyat bəxş etdi. Allah insanı Ona avtomatik tabe olan və Onu sevən robot kimi yaratmadı. Allah insana azad iradə və bununla birlikdə şəxsi seçim etməkdə azadlıq verdi. Nəhayət, bu, istənilən dostluq münasibətlərinin əsasıdır.
İlk insan seçim edib öz şəxsi yolu ilə getdi. İndi adamların hamısı Adəmin günahının nəticəsini yaşamaq məcburiyyətindədir. Günah sözünün hərfi mənası «hədəfdən yan keçmək»dir. İnsan hədəfə vurmayaraq Allahla etdiyi dostluqdan məhrum oldu. Beləliklə, Allahla olan həyat itirildi. Allahla insanları bir uçurum ayırır. Adamlar öz gücləri ilə bu uçurumu aradan qaldıra bilməzlər.

**Müqəddəs Kitab deyir:**
"Hamı günah edib, Allahın izzətindən məhrum olub"
Romalılara 3:23.

İnsanlar əsrlərlə özləri ilə Allah arasında olan
uçurumu aradan qaldırmağa çalışırlar.
Amma nə din, nə də yüksək əxlaq normaları bunu
aradan qaldıra bilmədi.
Bu uçurum dəfedilməzdir.

**İNSAN** **ALLAH**

**Bu problemin yalnız bir həlli var.**



**Allahın təmin etdiyi yol: İsa Məsih**

Allah Özü bu problemi həll etdi və YEGANƏ çıxış yolunu verdi. Hər bir insan bu yolla gedib-getməmək, həqiqətə inanıb-inanmamaq, Allah tərəfindən verilən həyatı axtarıb-axtarmamaq seçimini edir.




Nəhayət, Allah Özü problemi həll etdi. O, yer üzünə İsa Məsihi göndərdi və Allahla insanlar arasındakı uçurumu aradan qaldırdı. O, çarmıx üzərində dəhşətli ölümü və bizim günahlarımıza görə cəzanı üzərinə götürdü. Beləliklə, İsa Allahla bizim aramızdakı uçurumu aradan qaldırdı.

**Müqəddəs Kitab deyir:** «Allah bizə olan məhəbbətini bununla sübut edir ki, biz hələ günahkar ola-ola Məsih bizim uğrumuzda öldü» Romalılara 5:8

**İsa deyir:** «Yol, həqiqət və həyat Mənəm. Mənim vasitəm olmadan heç kim Atanın yanına gələ bilməz» Yəhya 14:6

Buradasan? Yoxsa burada?

**Sən özünü haraya aid edirsən?**

***Sən nəyi seçirsən?***




Dünyadakı bütün adamlar günahkar doğulmuşlar. Hətta günah etməsən belə, Allahdan əbədi ayrılmış olacaqsan. Amma Allah sənə Onunla həyatı seçmək imkanını verir. İsanın sənin günahlarına görə ölməsinə və ölülər arasından dirilməsinə inanırsansa, onda həqiqətən, sən Allahı seçirsən. Özünü yox, amma Allahı seçirsən! Bu, sənin bütün həyatını müəyyən edən seçimdir, çünki Allahı seçəndə, O, səni Öz övladı (oğlu və ya qızı) kimi qəbul edir və sənin Atan olur. Sən vəftiz və xeyirxah işlər vasitəsilə Allahın övladı olmursan. Sən İsadan ürəyinə daxil olmasını xahiş edəndən sonra Allahın övladı olursan. İsa səni qəbul edəndə sən günahlarının əfvini alırsan. İndi sən həyəcansız, xoşbəxt həyatla yaşaya bilərsən, çünki səni həyat yolu ilə aparacaq Rəbbin var.

Biz bunu "həyatı imanla yaşamaq" adlandırırıq. İman – Allahın sözünə inanmaq və buna uyğun hərəkət etmək deməkdir. Bunun düzgün olduğuna inanmaqdır. Biz İsaya iman etməli və Onu həyatımıza Rəbb kimi şəxsən qəbul etməliyik.

## Özünü Allaha həsr et

**Müqəddəs Kitab deyir:**
"Onu qəbul edənlərin hamısına, adına iman edənlərə Allahın övladları olmaq ixtiyarını verdi" Yəhya 1:12.

**Sual:**
İsa Məsihi öz həyatına qəbul etməkdə sənə nə mane olur?

### İsanı qəbul etmək nə deməkdir?

1. Günahkar olduğunu və Allahdan ayrı düşdüyünü etiraf etmək.
2. Allahın yanına gəlmək üçün sənə İsa Məsihin lazım olduğuna inanmaq.
3. İsa Məsihdən sənin ürəyinə daxil olmasını diləmək.
4. İsa Məsihin sənin günahlarına görə axıtdığı qanına və səni satın aldığına görə Allaha minnətdarlıq bildirmək.
5. Ömrün boyu Onun ardınca getmək istədiyini Allaha demək.

## Özünü Allaha həsr et



**Allaha belə dua et:**

Rəbb Allah, Sən mənim göydəki Atamsan. Səni tanımaq istəyirəm. Günahkar olduğumu başa düşürəm və mənə Sənin köməyin lazımdır.

İsa Məsihin mənə görə öldüyünə və sonra dirildiyinə inanıram.

Mən öz köhnə həyat tərzimdən imtina etməyə hazıram.

İsa Məsihin mənim ürəyimə və həyatıma daxil olması üçün dua edirəm.

Sənin köməyinlə mən İsa Məsihi Rəbbim və Xilaskarım olaraq qəbul edirəm və itaətkarlıqla Onun ardınca getməyə hazıram.

Amin.

Bu kitabdakı mövzular xüsusunda danışmaq istəyirsənsə, onu sənə verən şəxsə müraciət et.

O, Allahın sevgisi ilə sənə kömək edər və sən Allahla sülhdə yaşayarsan.

www.gabbertijd.nl
is veranderd ALSO ENGLISH